**İ.R.BAYRAMOVA**
*e-mail: bayramovha9@icloud.com*
**:https://orcid.org/0009-0002-0919-5628**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2025.4.404**

# VALİDEYNLƏRİNİ İTİRMİŞ UŞAQLARLA APARILAN PEDAQOJİ İŞİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə.*** *Məqalədə göstərilir ki, validеynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların yenidən tərbiyəsinin mürəkkəb və uzunmüddətli proses olduğunun nəzərdən qaçırılması, tərbiyəçilərin bu çətinliyə qatlaşmaq istəməmələri, hövsələli, səbirli olmamaları və s. bu prosesin uğurlu getməsinə manеə törədir.*
*Uşaqların mənlik şüuru, əxlaqi şüuru köklü şəkildə dəyişir, onların ünsiyyətlərində yeni cəhətlər əmələ gəlir. Onlar ailələrdə baş vermiş faciələri də çox vaxt yaşlı adamlar kimi qiymətləndirir, öz dərdlərini uşaq sadəlövhlüyü ilə deyil, yaşlı adam qayğıları ilə yaşayırlar.*

***Açar sözlər:*** *validеynlərini itirmiş uşaq, pedaqoji işi, natamam ailələr, çətin tərbiyə olunan uşaqlar, müəllim-şagird münasibətləri*

Uşaq psixologiyasını dərindən bilən A.S.Makarenko qeyd edirdi ki, atılmış uşaqların böyük əksəriyyətinin vəziyyəti yetim uşaqların vəziyyətindən daha mürəkkəb və qorxuludur. Uşağa yaxın olan böyüklər tərəfindən edilən satqınlıq uşaq qəlbinin sınması, insanlara inamın itməsi ilə nəticələnir. Evdə baş vermiş xoşagəlməz hadisələrin uşaq yaddaşında qalması gələcək uğursuzluqlar üçün münbit bir mühit yaradır. Belə uşağın reabilitasiyaya ehtiyacı var, lakin buna yalnız böyüklərin humanizmi: səxavəti, alicənablığı, fədakarlığı, mərhəməti, insafı, ədaləti, rəhmi kömək edə bilər [3, s.192].

Abbas Səhhət belə uşaqlara öz münasibətini bildirərək “Küçə uşağı” adlanan şeirində belə deyirdi:

*Görsəm çamırlı bir küçədə oynayır haçaq,*
*Çılpaq, ayaq yalın, baş açıq bir dəcəl uşaq.*
*Adət edib söyüşməyi, daim savaşmağı,*
*İt qovmağı, daş atmağı, xalqa sataşmağı* [1, s.23].

Bu gün tərbiyənin həyatla əlaqəsini, kollektivdaxili və kollektivdənkənar müxtəlifliyini nəzərə almaq lazımdır.

Müşahidələr göstərir ki, uşaq evinin tərbiyəçiləri belə hesab edir ki, burada aparılan təlim-tərbiyə işlərinin özünəməxsus xüsusiyyələri vardır. Elə işlər var ki, bunlar nə poblem üzrə mövcud proqramlarda, nə də müvafiq metodik vəsaitlərdə öz əksini tapmışdır.

Bu nöqteyi-nəzərdən uşaq evində böyük tərbiyəvi əhəmiyyəti olan xüsusi tədbirlər müəyyənləşdirilir:

1. Uşaq evində tərbiyə alan oğlan uşaqlarının dözümlülük – tolerantlıq ruhunda tərbiyə olunması üçün tədbirlərin keçirilməsi.
2. Hər bir uşağın uşaqlıq həyatını əks etdirən fotokartotekaların yaradılması (Buradakı şəkillər uşaqlara müstəqil həyat vəsiqəsi verilərkən təqdim olunur).
3. Uşaqların vərəsəlik hüququnun təmin edilməsi. Ata-analarından qalan mülkiyyətdən onlara çatası payın müəyyənləşdirilməsi və dövlət orqanları tərəfindən mühafizə olunması.

Uşaqların hüququnu, uşaq şəxsiyyətinin bütövlüyünü təmin edən belə tədbirlərin həyata keçirilməsi uşaq evinin pedaqoji kollektivinin çox gərgin səyi nəticəsində mümkün olmuşdur.

Bu uşaq evində geniş tətbiq olunan tərbiyəvi iş formalarından biri də bayramlar, tarixi günlər, uşaqların ad günlərinin təntənəli keçirilməsidir. Burada milli adət və ənənələrimizə istinad edən "İlin axır çərşəmbəsi", "Novruz bayramı" çox təntənəli keçir. Bayramların yaranması barədə söhbətlər aparılır, tərbiyəvi cəhətdən qeyd edilir.

Gəncədə fəaliyyət göstərən 2 nömrəli internat məktəbində ənənəvi tərbiyə işləri ilə təlim-tərbiyənin, adətən, az toxunulan bir sahəsinə ciddi diqqət yetirilir. Aydındır ki, internatda oğlan və qızlar bir yerdə oxuyur, bir yerdə yeyir, bir yerdə tədbirlərə gedirlər. Onların arasında müəyyən münasibətlər yaranır. Təcrübə göstəri ki, bu münasibətlər internatda birgə yaşayış şəraitində daim nəzarət altında olmalı, bu istiqamətdə sistemli və ciddi tərbiyə işi aparılmalı, oğlan və qızlar arasında cinsi pozğunluq əməllərinə yol verilməməlidir.Birgə yaşayış nəticəsində belə hallar baş verdikdə sonradan onların qarşısını almaq çətin olur.

İnternatın pedaqoji kollektivi xüsusi tədbirlər planı üzrə bu istiqamətdə ciddi iş aparır, müəyyən tədbirlər həyata keçirir. Tərbiyəçilər qeyd edirlər ki, internatda oğlan və qızlar arasında münasibətlərdə bərabər qaydaların qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir və bunlar uşaqların özləri tərəfindən qarşılıqlı tələblər və iddiaları müzakirə və hamını təmin edən münasibətlərin tapılması yolu ilə həyata keçirilir. Bütün bunlar həm xüsusi məşğələlərin (dərnəklər, oyunlar, psixoloji treninqlər), həm də sinifdənxaric tədbirlərin (gecələr, müsabiqələr, görüşlər, tematik ekskursiyalar və s.) keçirilməsində nəzərdə tutulur. Məşğələlər zamanı tərbiyəçi-pedaqoqlar nağıl, oyun, əhvalatlardan istifadə edir, bu da bənzəmə üçün pozitiv nümunədir. Şəxsi nümunə, söhbətlər, treninqlər də buna aiddir. İnternatda oğlan və qızlar arasında cinslərarası davranış tipi rəğbətləndirilir və ya əksinə, onlar bu və ya digər şəkildə cəzalandırılır. Əlbəttə, ikinci tərəfə nadir hallarda yol verilir.

Qayğıdan, mərhəmətdən, məhəbbətdən məhrum olmuş uşaqların ümumbəşəri müdafiəsi üçün yeni konseptual baxışları milli amillərlə əlaqələndirib, yaranmış mövcud problemi həll etmək bu gün çox vacib və həyati əhəmiyyət daşıyan problem olduğundan, bu işə səy və diqqəti bütün sosial və maarifləndirici dairələr humanist və demokratik prinsiplərlə reallaşdırmağı reallaşdırmalıdırlar.

Ailədən məhrum olmuş uşağın müdafiəsi, bu sahədə ona göstərilən qayğı parametrləri milli və ümumbəşəri məhəbbətin ifadəsi kimi fərqlandirilməlidir. Dövlət ailə mühitindən məhrum olmuş uşağın sosial müdafiəsini təmin etməyə, yaxud belə hallarda uşağın onlara baxılan müvafiq tərbiyə müəssisələrində yerləşdirilməsini təmin etməyə borcludur. Bu vəzifələrin yerinə yetirilməsi üçün göstərilən səylər zamanı uşağın milli mənsubiyyəti hökmən nəzərə alınmalıdır.

Ailədə, məktəbdə, ictimai yerlərdə, istehsalat kollektivlərində formalaşan uşaq aləmi həmişə qayğı və diqqətə möhtacdır. Bu ictimai məkanlarda valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların təhsil, mədəniyyət, sosial güzəran hüquqları əksər elmi-pedaqoji prinsiplər baxımından təkmilləşdirilməş metod və vasitələr sistemi ilə aparılarsa, qarşıya çıxan problemin ziddiyyətli və mürəkkəb xarakterini asanlıqla həll etmək reallaşar, bu sahədə uğurlu nəticələr əldə etmək olar.

Uşaq evlərində tərbiyə alan uşaqların mədəni-kütləvi tədbirlərdə iştirakı üçün müntəzəm, sistemli, məqsədyönlü iş apararkən, ilkin olaraq, aşağıdakı vasitələrdən istifadə edilə bilər:

- İdman tədbirləri;
- İctimai faydalı əməklə məşğul olmaq vərdişləri;
- Uşaqların birgə istirahətinin təşkili.

Bu cür tədbirlər uşaqları bir-birinə yaxınlaşdırmaqla onları müəyyən qayğı yükündən azad edir, həmrəylik səylərini birləşdirərək, onlarda bir-birinə hörmət və tələbkarlıq hissini gücləndirir.

Məlumdur ki,valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar ilk gündən kollektivdə-ailədə bəzi vərdişlərə yiyələnirlər. Onların əxlaqi keyfiyyətə malik bir insan olmaları üçün ailə və kollektiv qarşısında məsuliyyət durur. P.B Əliyev yazırdı: "Siz öz uşaqlarınızı tərbiyə etməyə başlamazdan əvvəl şəxsi davranışınızı yoxlayın. Böyüklərin şəxsi davranışı həlledici amildir. Əgər tərbiyəçinin özünün şəxsiyyətində qüsur varsa, heç bir resept kömək edə bilməz" [2, s.231].

Kimsəsiz uşaqların evi, məkanı bütün sosial-ictimai qruplardır, valideynləri isə onların hər gün qayğısını çəkən, tərbiyə edən, təlim verən kollektivdir. Belə uşaqlar ilk nəcib və humanist hissləri bu ocaqlardan mənimsəyir, forma və məzmunca müxtəlif olan məhəbbətin, qayğının nə olduğunu görür, onu duyur və hiss edirlər. Belə münasibətlər, kömək onların düzgüm böyüməlırinə və inkişaf etmələrinə öz müsbət təsirini göstərir, onların öhdələrində bu aləmin sosial dairəsinin göstərdiyi qayğıya, etdiyi ehtirama görə şərəfini qorumaq, məsuliyyətini daşımaq kimi bir vəzifə durur.

Müşahidlər göstərir ki, ailədə, kollektivdə olan qayğı, humanizm, həmrəylik mühitinin düzgün pedaqoji əsaslarla təşkili belə uşaqların yetkinliyini, iradi möhkəmliyini yüksəldir, onları həyata və cəmiyyətə möhkəm tellərlə bağlayır. Uşağa qayğı hisslərinin yoxluğu isə onu mənən sıxır, mənəvi sarsıntılara məruz qoyur. Uşağa göstərilən qayğı hər yerdə mötəbərlik səviyyəsində durmalı, bu işin görülmə texnologiyaları təkmil metod və vasitələrlə idarə olunmalıdır.

Uşaq evində tərbiyəçi daşıdığı humanist hissləri, qayğıları, əxlaqi keyfiyyətləri bütöv bir sistem şəklində həyata keçirməlidir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara göstərilən xeyirxahlıq, sadəlik qarşılıqlı kömək və s. kimi müsbət mənəvi dəyərlərə uyğunlaşmaq onları həyata və insanlara bağlayır.

Bütün bunları həyata keçirmək məqsədilə aşağıdakılar əsas götürülməlidir:

– Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara həyatın qanunauyğunluqlarını və qaydalarını dərk etdirmək; bu tip uşaqların həyatında öz yerini və rolunu müəyyənləşdirmələrinə, öz hüquqlarını bilməklə yanaşı, cəmiyyətin bir üzvü kimi üzərinə düşən vəzifələri başa düşməsinə nail olmaq;

– Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqları qanuna, birgəyaşayış qaydalarına, davranış və hüquq normalarına məhəbbət ruhunda tərbiyə etmək, onlarda himayəsizliyi dəf etməyə hazır olmaq hissi formalaşdırmaq;

– Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların mənəvi keyfiyyətlərinin daha da inkişaf etdirilməsi qayğısına qalmaq;

– Uğursuz ailələri aşkara çıxarıb, valideyn ictimaiyyətinin həmin ailələr üzərində təsirinə nail olmaq və s.

Məhz həmin qanunlara müvafiq şəkildə sosial anomaliyaya malik kiçikyaşlı məktəblilərlə sosial-pedaqoji istiqamətdə bir sıra tədbirlərin həyata keçirilməsi zərurəti meydana çıxır. Fikrimizcə, həmin tədbirlər aşağıdakı istiqamətlərdə aparılmalıdır:

– *mənəvi-psixoloji istiqamətdə.* Uşaq evləri uşaqları sadəcə fiziki cəhətdən böyütməklə kifayətlənməməli, onları kollektivdə yaşamağa, gələcək sosial rollarını uğurla həyata keçirməyə, qarşılıqlı münasibətlər qurmağa hazırlamalı, onlarda özünütəsdiq, özünüqiymətləndirmə bacarıqları formalaşdırmağa çalışmalıdır.

– *peşəyə yiyələnmək istiqamətində.* Belə uşaqlar müstəqil həyata başlayanadək elə internatın özündə müəyyən peşəyə yiyələnməlidirlər. Şagird burada əmək qabiliyyəti və vərdişlərinə, əmək fəaliyyətinin mühüm elementlərinə elə bir şəkildə yiyələnməlidir ki, gələcəkdə cəmiyyətdə ona real tələbat olsun, rəqabət qabiliyyətli olsun, o həmin peşənin köməyi ilə gələcəkdə ailəsinin maddi təminatını ödəyə bilsin.

– *internat müəssisələrinin həyatına "açıqlıq" gətirilməsi istiqamətində.* İnsanlar müntəzəm olaraq uşaq evləri ilə əlaqə saxlamalı, orada böyüyən uşaqların cəmiyyətdən izolə rejimini zəiflətməlidir. Sosial pedaqoji istiqamətdə aparılan işlər nəticəsində cəmiyyətin üzvləri rəğ-

bətləndirilməlidir ki, ailələr tərəfindən uşaq evlərindənyetim uşaqların övladlığa götürülməsi daha geniş yayılsın.

– *Aztəminatlı ailələrə ünvanlı və zəruri tələbata adekvat maddi yardım göstərilməlidir.* Yarımçıq ailələrə uşaqların normal inkişafına qədər müavinət ödənilməlidir. Yetim, valideyn himayəsindən məhrum, fiziki və psixi çatışmazlığı olan uşaqların mühafizəsi və saxlanılıb tərbiyə olunmasına dövlət qayğısını özündə ehtiva edən milli proqramlar qəbul olunmalıdır;

– *Yetimlərə, xəstələrə, şikəst uşaqlara cəmiyyətdə xeyirxah münasibət bərqərar olmalıdır.* Onlar bütün digər insanlar kimi öz hüquqlarından maksimum faydalanmalı, hər yerdə humanist rəftarla əhatə olunmalı, ictimai şüurda onlara münasibətdə təzahür edən tam yararlı olmamaq kompleksi dəf edilməlidir;

– *Övladlığa götürmə cəmiyyətin daxili sosial-mənəvi həyatında fəal təzahürə çevrilməlidir.* Bu hüquqi aktın prosedur qaydaları təkmilləşdirilməlidir. Eyni zamanda, uşaq alverinə qarşı transmilli cinayətkarlıq kimi sərt hüquqi mexanizmlər yaradılmalıdır.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla aparılan tərbiyə işi sosial pedaqogika elminin fəallaşdırılmasının əsas motivinə çevrilmişdir. Bu mənada qaçqın və məcburi köçkün ailələrində böyüyən uşaqlarla sosial pedaqoji işin aparılması üçün xüsusi tədbirlər planı hazırlanmalıdır. Həmin tədbirlər məktəb, icma və cəmiyyətin digər ictimai təşkilatları tərəfindən əlaqəli şəkildə, iki istiqamət üzrə aparılmalıdır:

– mürəkkəb həyati situasiyalarda kiçikyaşlı məktəblilər qarşısında duran tələb və vəzifələrin həllinə kömək etmək;

– mürəkkəb həyati situasiyalarda kiçikyaşlı məktəblilərin imkanlarını stimullaşdırmaq, neqativ təsirləri zəiflədib, qarşısını almaq, müxtəlif peşə metodları, xüsusi texnologiya və təhsil konsepsiyalarının köməyi ilə sosial problemləri dəf etməyə nail olmaq.

Beləliklə, tədqiqatın yekununda belə bir qənaətə gəlmək olur ki, küçə uşaqlarının meydana gəlməsinə səbəb bir tərəfdən ailə və məktəb tərbiyəsində yol verilmiş qüsurlardırsa, digər tərəfdən bu işdə bu boşluqların aradan qaldırılmasında cəmiyyətin də üzərinə mühüm vəzifələr düşür. Bazar iqtisadiyyatına keçid bir çox ailələrin dolanışığını çətinləşdirib. Ailələrin maddi vəziyyətinin tezliklə və lazımi səviyyədə yaxşılaşdırılması, iş yerlərinin açılması gələcək nəsillərin tərbiyəsinə əsaslı kömək göstərir.

Tərbiyəçilər tezliklə öyüd-nəsihətləri, yersiz iradları və tələbləri, lüzumsuz himayəçilikləri, zorakılıqları ilə əslində uşaqların müstəqillik və təşəbbüskarlığının qarşısını alır, onların yaradıcı qüvvəsini boğurlar. Tərbiyəçilər arasında elələri də vardır ki, uşağın müstəqillik hüququnu inkar edirlər. Halbuki bu, yolverilməzdir.

Tədqiqatın nəticələri pedaqogika elmini valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla pedaqoji işin istiqamətləri, yolları ilə bağlı yeni fikirlərlə zənginləşdirir.

***Nəticə.*** Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların meydana gəlməsinin səbəbkarı valideynlər və mühitdir. Ailədə uşağın tərbiyəsi vaxtında düzgün qurulmayanda, ailənin nəzarəti zəif olanda, ata-ana pis nümunə göstərəndə, məktəb də bu işdə səhlənkarlığa yol vermiş və nəticədə tərbiyəlilik səviyyəsi qüsurlu olan uşaq formalaşmışdır.

***Tədqiqatın elmi yeniliyi.*** Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla işin pedaqoji-psixoloji məzmunu müəyyənləşdirilərək tərbiyəçilərə onların təhsil uğurlarına nail olma yolları göstərilir. Gəncə şəhərində ilk dəfə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla pedaqoji işin sisteminin yaradılmasına səy göstərilir.

***Tədqiqatın praktik əhəmiyyəti.*** Tədqiqatın nəticələrindən Bakı şəhəri, Nizami, Xətai və Suraxanı rayon uşaq evlərinin, həmçinin Gəncə, Şəki və Lənkəran uşaq evlərinin, SOS Uşaq kəndinin və "Ümid yeri" uşaq sığınacaqlarının tərbiyəçiləri faydalana bilər.

## Ədəbiyyat


1. Abbas Səhhət. Seçilmiş əsərləri / – Bakı, – 1997, – 374 s.
2. Əliyev, P.B. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla tərbiyə işinin təşkili / P.B.Əliyev, X.Talıbova, Ş.Məmmədova, – Bakı: Mütərcim, –2011, – 111 s.
3. Makarenko, A.S. Seçilmiş pedaqoji əsərləri / A.S.Makarenko, – Bakı, – c.2. –1983, – 306 s.


**I.R.Bayramova**

### Organizational Features of Pedagogical Work with Children who Have Lost Parents

***Summary***

This article demonstrates that ignoring the complex and lengthy process of re-educating children who have lost parents and are deprived of parental care, the reluctance of educators to take on this challenge, their lack of desire and patience, etc., hinder the successful progress of this process.

Children's self-awareness and moral consciousness are radically altered, and new characteristics of their communication emerge. They often evaluate family tragedies as adults, and experience their misfortunes not with childish naivety, but with the concern of an adult.

***Keywords:*** *child who has lost parents, pedagogical work, single-parent families, children with difficult upbringings, teacher-student relationships*

**И.Р.Байрамова**

### Организационные особенности педагогической работы с детьми, потерявшими родителей

**Резюме**

В статье показано, что игнорирование того, что перевоспитание детей, потерявших родителей и лишенных родительской опеки – это сложный и длительный процесс, нежелание воспитателей брать на себя эту трудность, отсутствие у них желания и терпения и т. д., препятствуют успешному протеканию этого процесса.

С корнем меняются самосознание и нравственное сознание детей, появляются новые особенности в их общении. Они часто оценивают трагедии, произошедшие в семьях, как взрослые, и переживают свои беды не с детской наивностью, а с заботами взрослого.

***Ключевые слова:*** *ребенок, потерявший родителей, педагогическая работа, неполные семьи, дети с трудным воспитанием, отношения «учитель-ученик»*

*Rəyçi: p.f.d. G.İ.Pirverdiyeva*

*Redaksiyaya daxil olub: 08.10.2025*